**Azərbaycan dili və ədəbiyyatı müəllimliyi-**bu ixtisasda təhsil alan almağın üstün cəhəti odur ki, həm Azərbaycan dilinin , həm də ədəbiyyatın dərin biliklərinə yiyələnirsən. Bu ixtisasının mahiyyəti Azərbaycan dilinin tarixinin əsas mərhələlərini, xronologiyasını bilən, dövlət dilində sərbəst danışan, düzgün yazı vərdişlərinə yiyələnən, öz peşə fəaliyyətini təşkil edən, ixtisas səviyyəsini daim artıran, işin nəticəsinə görə məsuliyyəti öz üzərinə götürməyi bacaran, peşə vəzifəsini əxlaqi normalara və xidməti etikaya uyğun yerinə yetirən kadr potensialının yaradılması, güclü tədris intizamının formalaşdırılmasından ibarətdir. Azərbaycan dilinin qrammatik strukturunu, bölmələrini geniş şəkildə öyrətməklə yanaşı dilçilik, ədəbi dil tarixi haqqında məlumat vermək, Azərbaycan ədəbiyyatının (o cümlədən Dünya ədəbiyyatının) xronoloji ardıcıllıqla öyrənilməsini həyata keçirmək, müxtəlif dövrlərdə yaşamış yazıçı və şairlərin həyat və yaradıcılığını öyrətmək, ilkin nəzəri məlumatlarla təmin etməkdir.